# Baramaçılığın inkişafına dair seminar

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzində "Azərbaycanın şimal-qərb bölgəsi timsalında aqrar sahənin innovativ tədbirlər paketinin və aqro-ekoloji inkişaf modelinin hazırlanması" layihəsi çərçivəsində seminar-müşavirə keçirilmişdir. Seminarda rayonumuzda fəaliyyət göstərən barama istehsalçıları, fermerlər, aqronomlar və mərkəzin mütəxəssisləri iştirak etmişlər.

Seminar-müşavirəni mərkəzin direktoru Rahib Əhmədov açmış, mövzuların aktuallığı barəsində iştirakçıları məlumatlandırmışdır.

Gündəlikdə nəzərdə tutulan "Azərbaycanın şimal-qərb bölgəsində ipəkçiliyin inkişaf perspektivləri" mövzusu barədə biologiya üzrə fəlsəfə doktoru Fərhad Əzizov məruzə etmişdir.



O, məruzəsində bu sahənin həm ölkə, həm də region üçün əhəmiyyəti, özünüməşğulluğunun artırılması və iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında rolu barədə məlumat vermişdir.

"İpək qurdunun yemlənməsində aqrotexniki qaydalar, ipək qurdunun xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri" mövzusu üzrə AMEA Şəki Regional Elmi Mərkəzinin Tut ipək qurdunun seleksiyası şöbəsinin rəhbəri, biologiya üzrə fəlsəfə doktoru, dosent Qüdrət Bəkirov məruzə etmiş, ipək qurdunun inkubasiyası, mikroskop analizi, inkubasiyadan əvvəl görüləcək dezinfeksiya tədbirləri, onların yerinə yetirilmə qaydaları, hər yaş dövrünə uyğun olaraq ipək qurduna qulluq, yemləmə və aqrotexniki qaydalara əməl edilməsi, keyfiyyətli barama və ipək məhsulunun alınmasına dair geniş məlumat vermişdir.

"İpəkçiliyin inkişafının bölgənin və ölkənin iqtisadiyyatında rolu" haqqında AMEA Şəki Regional Elmi Mərkəzinin elmi işçisi Aqil Mustafayev məlumat vermişdir. O, öz çıxışında ipəkçiliyin region və ölkə iqtisadiyyatında rolu və əhəmiyyəti, ipək qurdunun yeni cins və hibridlərinin qiymətləndirilməsi üsulları, ipək çıxımı və məhsuldarlığı ilə fərqlənən cins və hibridlər, ayrı-ayrı cinslərin bioloji və texnoloji göstəriciləri barədə danışmışdır.

"Xaricdən gətirilmiş Çin çəkil tinglərinin yetişdirilməsində aqrotexniki qaydalar" mövzusu üzrə AMEA Şəki Regional Elmi Mərkəzinin Genofond və biomüxtəliflik şöbəsinin rəhbəri Cosqun Məmmədov çıxış etmiş, həmin sortun Şəki təcrübə sahəsində əkilmiş tinglərinin böyüməsi və inkişafı dinamikası, onların məhsuldarlığı barədə məlumat vermişdir.

Seminar iştirakçılarını maraqlandıran suallar məruzəçilər tərəfindən cavablandırılmış, aparılan müzakirələrdən sonra verilən təkliflər qeydə alınmış, onlara aqrotexniki qaydalara dair metodiki təlimat paylanılmışdır.

**"Qəbələ"**

# Kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olunub

Xalqımızın ən qədim bayramlarından olan Novruz bayramı ərəfəsində Qəbələ şəhərində



kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olunub.

Əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək məqsədi ilə keçirilən yarmarkaya mövsümə uyğun olaraq əsasən meyvə-tərəvəz məhsulları və bayram çərəzləri çıxarılıb.

Yarmarkada alıcıların və satıcıların rahatlığı üçün hər cür şərait yaradılıb. Şəhər sakinlərinə təqdim olunan məhsulların keyfiyyəti sanitar nəzarətindən keçirilir.

Ötən həftə keçirilən yarmarkaya 600 kq mal əti, 400 kq qoyun əti, 200 kq quş əti, 410 kq ağartı məhsulları, 1650 litr süd, 11,5 ton soğan və kartof, 6,5 ton meyvə, 300 kq bal, 1500 ədəd yumurta həmçinin müxtəlif çeşidlərdə şirniyyat çıxarılıb və yarmarkadakı qiymətlər bazar qiymətləri ilə müqayisədə 20-25 faiz ucuz olub.

Müştərilər bayram ərəfəsində açılmış yarmarkada təklif olunan məhsulları həvəslə alıb və satış yarmarkasının təşkilatçılarına öz minnətdarlıqlarını bildiriblər.

**"Qəbələ"**

# Meyvə ağaclarının budanması məhsuldarlığın artırılması üçün vacib şərtdir

Bağlarda ağacların qış budanması davam edir. Məhsulun bol olması budanma prosesinin aqrotexniki qaydalara uyğun aparılmasından çox asılıdır.

Qış budanmasında əsas məqsəd bitkinin daha sağlam və daha məhsuldar olması, ağacların meyvə vermək üçün hazırlanması, zərərvericilərə qarşı mübarizə tədbirləri zamanı yarana biləcək problemin aradan qaldırılması və bitkinin inkişafının tənzimlənməsidir.

Kasa forması verilən budanmada beş əsas budaq saxlanılmalı, digər budaqlar kəsilməlidir. Ağacların daxilindəki xırda budaqlar təmizlənməlidir. Bu, gələcəkdə dərman preparatının, gün işığının bitkinin daxilinə nüfuz etməsinə zəmin yaradır. Xırda budaqlar təmizləndikdən sonra əsas budaqların yerləşməsinə baxılmalıdır. Əgər budaqlar sıx yerləşibsə, həmin budaqlar da kəsilib götürülür. Çünki bu, gələcəkdə məhsuldarlığa təsir göstərə bilər.

Budanma prosesi payızda noyabr ayında, yaz mövsümündə isə fevralın axırından aprelin əvvəlinədək davam edir.

**Elmdar ŞƏRİFOV,**
**Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri.**

# Arıçılığın inkişafına diqqət artıb

Ötən il 30 min 474 təsərrüfatda mövcud olan 501 min arı ailəsindən 4993,9 ton bal, 98,6 ton mum, 9,9 ton vərəmum, 7,7 ton güləm və 400,8 kiloqram arı sü-



dü əldə edilib.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, balın 1 kiloqramının orta satış qiyməti 20,6 manat, mumun 14,2 manat, vərəmumun 118,4 manat, güləmin 71,1 manat, arı südünün 1 qramının orta satış qiyməti isə 4,6 manat təşkil edib.

Keçən il 71,5 min ABŞ dolları dəyərində 8,3 ton və ya 2017-ci illə müqayisədə 1,8 ton çox bal ixrac edilib ki, onun da 96,4 faizi Yaponiyanın payına düşür.

Ümumiyyətlə, "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edildiyi dövrdən sonrakı 10 ildə həm arı ailələrinin sayı, həm bal istehsalı 3,5 dəfə artıb. Arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı isə 11,1-dən 16,4-dək çoxalıb.

Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə verilən subsidiya ilə əlaqədar ölkədə arıçılığın inkişafına diqqət artıb.

Təsadüfi deyil ki, əvvəlki illə müqayisədə 2018-ci ildə arı ailələrinin sayı 229,3 min, bal istehsalı isə 1950,8 ton çoxalıb.

# Fermerlərimiz Bakı şəhərində təşkil olunan Novruz yarmarkasında iştirak edirlər

Martın 9-da Bakı şəhərində açılan Novruz yarmarkasında respublikanın müxtəlif bölgələrindən gələn sahibkarlarla yanaşı Qəbələ fermerləri də paytaxt sakinlərinə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən ucuz təklif edirlər.

Satış yarmarkasında məhsulların keyfiyyətinə və qiymətinə müvafiq qurumlar tərəfindən nəzarət olunur. Dövlətimizin başçısının tapşırığına əsasən təşkil edilən bu yarmarkaların məqsədi fermerlərin, sahibkarların öz məhsullarını əlverişli şəraitdə sata bilməsi, əhalinin isə ucuz qiymətə məhsul almasıdır.

Belə tədbirlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında süni qiymət artımının qarşısının alınması və istehlakçıların seçim imkanlarının artırılması məqsədilə təşkil olunur.

Qeyd edək ki, hər həftənin şənbə və bazar günləri Qəbələ şəhərində də bu məqsədlə Novruz yarmarkaları təşkil olunur.

**"Qəbələ"**

# Seminar keçirilib

Avropada aparıcı kənd təsərrüfatı texnikasının istehsalçısı olan CLAAS şirkətinin servis tərəfdaşı olan "4S" şirkətinin nümayəndələri Qəbələ Aqrokompleksində və "Gilan Dairy"də, üçgünlük seminarlar təşkil edib.

Tədbirə dəvət edilmiş xarici ekspert, PPMA GmbH & Co.KG şirkətinin aqrar sahə üzrə iqtisadçısı Bernd Henn süd verən iribuynuzlu mal-qara üçün düzgün yemin hazırlanması, Azərbaycanın iqlimi və məhsuldarlıq şəraitində premium sinif yemlərin istehsal üsulları haqqında məlumat verib, keyfiyyətli yemin əldə edilməsi üçün düzgün kombayn seçiminin vacibliyindən danışıb.

Seminar çərçivəsində cari yemləmə modelləri araşdırılıb.



Xüsusi formullara əsaslanaraq iribuynuzlu mal-qara üçün təşkil edilmiş yem rasionu analiz edilib və individual proqnozlar hazırlanıb. Yemləmə rasionunun düzgün tərtib edilməsi üçün səyyar baxış keçirilib, müvafiq məsləhətlər verilib.

Seminarda mövzu ilə əlaqədar geniş fikir mübadiləsi aparılıb.

**"Qəbələ"**